*Bizim ölkələrimiz arasında münasibətlər möhkəm mehriban qonşuluq və dostluq ənənələrinə malikdir. Rusiya Federasiyası ilə münasibətlər Azərbaycanın xarici siyasətində çox mühüm yer tutur... Dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir.*

**Mehriban ƏLİYEVA**
**Azərbaycanın Birinci vitse-prezidenti**
**Moskva, 22 noyabr 2019-cu il**

*Əlbəttə, bu dövlət mükafatı, bu “Dostluq” ordeni... Sizin bizə gəldiyinizə görə yox, Sizin Azərbaycanda ali vəzifəli şəxslərdən biri olduğunuza görə yox... Sizin işinizlə, Sizin fəaliyyətinizlə, dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanması ilə bağlıdır. Biz bunu çox yüksək qiymətləndiririk.*

**Vladimir PUTİN**
**Rusiya Federasiyasının Prezidenti**
**Moskva, 22 noyabr 2019-cu il**

# Azərbaycan – Rusiya əməkdaşlığı bu gün öz tarixi ərzində ən yüksək səviyyədədir

Öncə onu xatırladım ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Moskvaya rəsmi səfəri Azərbaycan–Rusiya əməkdaşlığının daha da genişləndirilməsi üçün yeni imkanlar yaradır. Bu barədə qələmə almaq istədiyim yazının əvvəlində zamanın insanlara verdiyi çoxsaylı dərslərdən bəhs edən bir kitabda oxuduğum ibrətamiz hadisəni xatırlatmaq istəyirəm. Müdrik ağsaqqal oğlundan soruşur ki, oğlun ( yəni ağsaqqalın nəvəsi) necədir? Deyir: Yaxşıdır, sariban dostumdan xahiş etmişəm Hindistana gedəndə onu da aparsın ki, hind dilini öyrənə bilsin.

Müdrik bir qədər susduqdan sonra soruşur ki, təknədən çörəyin, lampadan nöyütün qurtaranda kimdən istəyirsən?

Oğlu suala sualla cavab verir:
– Kimdən istəyirsən?

– Əlbəttə, qonşundan. Ona görə də uşağa əvvəlcə qonşunun dilini öyrət, sonra başqa dilləri öyrənər...

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Moskvaya rəsmi səfəri barədə qəzetlərdə verilmiş materialları oxuyarkən, ilk növbədə, yadıma düşən bu oldu. Çünki Mehriban xanımın səfər çərçivəsində keçirdiyi tədbirlərin, demək olar ki, hamısında azərbaycanlıların rus dilinə verdiyi önəm və bəslədiyi hörmət yada salınırdı.

Mehriban Əliyevanın Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü, ona hələ avqustun 13-də imzalanmış Prezident fərmanına əsasən təltif olunduğu “Dostluq” ordeninin təqdim edilməsi hər iki ölkənin mətbuatının diqqət mərkəzində oldu.

Dost ölkənin Prezidenti xatırlatdı ki, Mehriban Əliyeva əvvəllər Moskvada çox olsa da, bu dəfə yeni statusla – Birinci vitse-prezident kimi gəlməsi xüsusilə qeyd edilməlidir: “Mən bilirəm ki, Sizin səfərinizin çox böyük, zəngin proqramı var. Rusiya Federasiyası hökumətinin sədri Dmitri Anatolyeviç Medvedev Sizinlə görüşü barədə mənə artıq məruzə edib. Bilirəm ki, orada danışmağa mövzu olub. Mən, ilk növbədə, bizim ticari-iqtisadi əlaqələrimizin artan həcmini nəzərdə tuturam. Cari ilin doqquz ayı ərzində əmtəə dövriyyəsi 26 faiz artıb. Bu, ciddi göstəricidir. Biz, demək olar ki, bütün istiqamətlər üzrə – parlamentlər, ictimai təşkilatlar səviyyəsində əlaqə saxlayırıq”.

“Yenidən Moskvada olmağıma çox şadam. Moskva mənim üçün yaxın, doğma şəhərdir,” – deyən Mehriban Əliyeva əlavə etdi ki, mənim tələbəlik illərim burada keçib: “Moskva hər dəfə göz oxşayır. Mənim Rusiya Federasiyasının dövlət mükafatı – “Dostluq” ordeni ilə təltif edilməyimə görə də Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim Rusiya–Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətimə verilən yüksək qiymətdir”.

Azərbaycanın Birinci vitse-prezidenti xatırlatdı ki, Prezident İlham Əliyev Rusiya–Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verir: “Sizinlə İlham Heydər oğlu arasında müntəzəm görüşlər bizim ikitərəfli əlaqələrin çoxvektorluluğunu və dinamizmini müəyyən edir. Mən həm də Azərbaycan Respublikası Prezidentinin Sizə münasib vaxtda ölkəmizə səfər etmək təklifini çatdırmaq istəyirəm”.

Təbii ki, Azərbaycan – Rusiya əməkdaşlığının siyasi, iqtisadi, elmi, texniki və digər sahələrinin hamısında kifayət qədər uğurlara imza atılmışdır. Ancaq Mehriban xanım məhz xalqlarımızı bir-birinə yaxınlaşdıran məqamdan – humanitar əməkdaşlıqdan daha çox söz açdı: “Hesab edirəm ki, bu münasibətlər nümunəvidir… Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox böyük hörmət bəsləyirlər. Respublikamızın paytaxtında M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Moskva Dövlət Birinci Tibb Universitetinin filialları çox uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 dövlət ali məktəbində rusdilli bölmə fəaliyyət göstərir. Rusiyada 11 min azərbaycanlı tələbə təhsil alır və əlbəttə ki, Azərbaycanın çoxminlik rus icması ölkəmizin ümumi inkişafına öz layiqli töhfəsini verir”.

Azərbaycanın Birinci vitse-prezidentinin səfər çərçivəsində TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana TASS, “Rossiyskaya qazeta” və “Rossiya-24” telekanalı üçün müsahibəsində isə səfərinin yekunları barədə danışıldığına görə politoloq, ekspert və mətbuat təmsilçiləri həmin müsahibəyə çox böyük həssaslıqla yanaşmışlar. Mehriban xanımın dilə gətirdiyi “Ölkələrimizi möhkəm dostluq və mehriban qonşuluq ənənələri bağlayır. Bu gün biz Azərbaycan-Rusiya münasibətlərini strateji tərəfdaşlıq kimi səciyyələndiririk. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında münasibətlər öz tarixi ərzində ən yüksək səviyyədədir” – tezisləri isə dostlarımızı sevindirdiyi kimi, bədxahlarımız üçün ağır zərbə olmuşdur.



Müsahibədə qeyd edilir ki, Azərbaycanla Rusiyanı qədim və möhkəm dostluq, mehriban qonşuluq ənənələri bağlayır, ölkələrimiz dinamik inkişaf edir. Bu, dövlətlərarası əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradır. Xatırladılır ki, Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. Rusiya Azərbaycanın ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalına görə birinci yeri tutur. Sevindirici haldır ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin durmadan artması müşahidə olunur. Ötən il Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 19 faiz artaraq 2,6 milyard dollara bərabər olub. Cari ilin doqquz ayı ərzində bu göstəricinin 26 faiz artması müşahidə olunur, qarşılıqlı sərmayə qoyuluşu göstəriciləri də yaxşıdır. Rusiyanın Azərbaycanda sərmayə qoyuluşunun həcmi 4,9 milyard dollardır. Azərbaycan Rusiya iqtisadiyyatına 1,2 milyard dollar investisiya yatırıb. Çox sevindirici haldır ki, son vaxtlar neft sektorunda ənənəvi qarşılıqlı fəaliyyətlə bərabər, qeyri-neft sektorunda, maşınqayırma, istehsal avadanlığı, kimya sənayesi, əczaçılıq, energetika, nəqliyyat kimi sahələrdə çoxsaylı müştərək layihələr inkişaf etdirilir.

Birinci vitse-prezidentin müsahibəsinin finalı daha çox diqqət çəkir. Belə ki, Mehriban xanım həmin məqamda rəsmi, siyasi, diplomatik statusunu bir kənara qoyur və əsl Şərq xanımı, Azərbaycan qadını kimi xalqlarımıza sülh, əmin-amanlıq, xoş günlər arzulayır: “Mən həm Rusiya xalqına, həm də Azərbaycan xalqına, ilk növbədə, əlbəttə, sülh arzulamaq istəyirəm. Dövlətlərimizin uğurlu inkişafını, onların qarşısında duran planların həyata keçməsini arzulamaq istəyirəm. Tamamilə adi insani istəklərimi –möhkəm cansağlığı, nurlu və xeyirli günlər arzulamaq istəyirəm. İstəyirəm ki, uğurlar kədərlərdən çox olsun!”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***